**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

---

**Bank işi**

***(5 kredit (AKTS))***

***Müəllim haqqında məlumat***

***Müəllim:Nəbiyeva Şəlalə Nürəddin***
**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 125
**İş nömrəsi:**
**Mob** 050 331 33 41
**İş saatları: 8 00 – 16 00**

***Müəllim haqqında məlumat***

***Müəllim(seminar):Ass. Vəliyev Fərid Şakir oğlu***

**Kafedra**: **Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 118**

**İş nömrəsi: 268 94 53**

**Mob**: **055 300 50 48**

**İş saatları: 8:00 – 16:00**

**E-mail: ferid.veliyev.89@mail.ru**

**GƏNCƏ - 2021**

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxumalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənləəlaqəli informasiyalarla tanış ola bilərlər.

Koronovirus pandemiyası səbəbindən bütün dərslər praktik olaraq onlayn Microsoft Teams platforması vasitəsi ilə keçiriləcəkdir.

## *Kurs cədvəli*

Hər həftənin bazar ertəsi 10:10 –da (Mühazirə)

## *Fənnin təsviri*

Bank işi fənni Maliyyə və pul-kredit münasibətləri şəraitində tələbələrin nəzəri bilik və təcrübə qazanmalarına eləcə də praktiki yenilikləri mənimsəmələrinə vərdişlərin aşılanması, əsas iqtisadi göstəricilərin təhlili və proqnozlaşdırılmasının dərindən mənimsənilməsi, müxtəlif iqtisadi göstəricilərin təhlili sahəsində gələcək mütəxəssislərin idarəçilik səriştəsinə yiyələnməsi və qərarların qəbulu sahəsində yaxından iştirakının öyrənilməsi məsələlərini nəzərdə tutur.

Bank işi fənni tələbələrə iqtisadi həyatda pul, kredit və bankların zəruriliyi, mahiyyəti, rolu və əhəmiyyəti haqqında geniş nəzəri bilik verir. Bu fənni öyrənmədən "Pul ,kredit və banklar" ", "Banklarda uçot və audit", "Beynəlxalq valyuta-kredit münasibətləri", "Bank menecmenti" və s. kimi ixtisas fənnlərini öyrənmək və dərindən mənimsəmək qeyri mümkündür.

Bank işi fənninin tədris proqramına uyğun olaraq hazırlanmışdır. Mühazirələrin hazırlanmasında Azərbaycan Respublikası Konstitutiyasından , Mülki Məcəllədən, qanun, qərar və fərmanlarından , Dövlət Statistika Komitəsinin və Mərkəzi Bankın statistik məlumatlarından, xaricdə və respublikamızda nəşr edilmiş ədəbiyyatlardan , jurnal və qəzet materiallarından və s. geniş istifadə edilmişdir. Mühazirələrdə pul, kredit münasibətlərinin nəzəri və praktiki məsələləri, bank fəaliyyətinin nəzəri və təşkilati əsaslan qarşılıqlı surətdə izah edilir ki, bu da iqtisadi və sosial inkişafda pul, kredit və bankların rolu və əhəmiyyətinin daha düzgün və dərindən başa düşülməsinə, onlardan səmərəli istifadə olunmasına şərait yaradır.

Pul-kredit tənzimlənməsinin köməyilə iqtisadi sabitlik təmin edilir, pulun alıcılıq qabiliyyəti yüksəldilir, milli valyutanın məzənnəsi qorunub saxlanılır, ölkənin ödəniş balansın aktivliyi təmin edilir.
Nağdsız hesablaşmaların mahiyyəti və əhəmiyyəti mövzusunda, bank hesabları və onların açılması qaydası, hesablaşma sənədləri və onların rekvizitləri, nağdsız hesablaşmaların formaları və onların xüsusiyyətləri, banklararası hesablaşmalar, milli ödəniş sistemi və s. məsələlər aydınlaşdırılır.

***Planlaşdırlan təlim nəticələri***

Bank sistemi və onun xarakteristikası, bank sisteminin formaları, ikipilbli bank sistemi və onun xarakterik cəhətləri, Azərbaycan Respublikasının müasir bank sistemi şərh olunur.

Fənnin tədrisi zamanı Mərkəzi Bank, onun rolu və əhəmiyyəti, Mərkəzi Bankın funksiyaları, strukturu və idarə olunması, Mərkəzi Bankın müstəqilliliyi, Mərkəzi Bankın pul-kredit siyasəti və onun tənzimlənməsi alətləri, Mərkəzi Bankın əməliyyatları, kredit təşkilatları ilə əlaqəsi, Mərkəzi Bankın hesabatlığı və sair məsələlər izah edilir.

Kommersiya banklarının rolu və əhəmiyyəti, funksiya və vəzifələri, bank fəaliyyətinin təşkili prinsipləri, bankların təsnifatı, bankların yaradılması qaydası, bank əməliyyatları, bank olmayan kredit təşkilatları, onların rolu və vəzifələri şərh olunur.
Digər mövzularda fəsil beynəlxalq valyuta - kredit münasibətlərinə həsr edilir. Bu fəsildə Azərbaycan Respublikasının beynəlxalq iqtisadi əlaqələri, valyuta kursu və onun müəyyən edilməsi, valyuta kursunun növləri, valyuta bazarı, valyuta ehtiyatları, beynəlxalq hesablaşmalar, tədiyyə balansı, onun aktiv və passivliyi, beynəlxalq kredit, onun formaları və növləri, beynəlxalq maliyyə - kredit təşkilatları, onların vəzifələri, rolu və əhəmiyyəti kimi məsələlərə aydınlıq gətirilir.
<u>Tələbə fənni öyrənərkən aşağıdakıları bilməlidir:</u> tələb olunan təlimatı materiallar və normativ hüquqi sənədlər, təhlil problemləri və müasir metodika, statistik məlumatların mənbəyi, kreditlərin dövriyyəliyi və səmərəliliyi, əmanət və pul, biznes-planlar, pul kredit siyasəti, təhlil etmək üçün tələb olunan statistik göstəricilər və hesablama metodikasını.

## Fənnin proqramı və həftələr üzrə bölünməsi

| № | **Mövzular** | Mühazirə | Seminar |
|---|---|---|---|
| Həftə 1 | Bank sisteminin təşkili və fəaliyyətinin əsasları | 2 | 2 |
| Həftə 2 | AR Mərkəzi Bankı və Maliyyə Bazarlarına Nəzarət Palatası | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| Həftə 3 | Bank kapitalının formalaşdırılması | 2 | 2 |
| Həftə 4 | Banklarda nəğdsiz hesablaşma əməliyyatlarının aparılması | 2 | 2 |
| Həftə 5 | Bnaklarda kredit əməliyyatlarının aparılması | 2 | 2 |
| Həftə 6 | Banklarda kassa əməliyyatlarının aparılması | 2 | 2 |
| Həftə 7 | Banklarda xarici valyuta ilə əməliyyatların aparılması. | 2 | 2 |
| Həftə 8 | Bank aktivlərin təsnifləşdirilməsi, likvidlik və ödəmə qabiliyyəti. | 2 | 2 |
| Həftə 9 | Bankların qiymətli kağızlarla əməliyyatları. | 2 | 2 |
| Həftə10 | Kommersiya banklarının vasitəçilik əməliyyatı | 2 | 2 |
| Həftə11 | Bank riskləri | 2 | 2 |
| Həftə12 | Banklarda korporativ idarəetmə standartları və marketinq strategiyası | 2 | 2 |
| Həftə13 | Banklarda daxili audit qaydaları | 2 | 2 |
| Həftə14 | İslam Bankçılığı alternativ maliyyələşdirmə xidməti kimi | 2 | 2 |
| Həftə15 | **Beynəlxalq maliyyə təşkilatları** | 2 | 2 |
| **CƏMİ** | **:** | **30** | **30** |

*Fənn üçün 60 saat (5 kredit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır. Hər həftədə 2 saat mühazirə və hər həftə 2 saatlıq seminar var.*

## *Fənnin tematik təqvimi*

## *Mühazirənin quruluşu*

Mühazirə müddəti 90 dəqiqə onlayn olaraq planlaşdırılır. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər.
Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzu Microsoft Teams vasitəsilə hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və / və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 25% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

## *Seminar*

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test sualları da təqdim olunur. Tələbələr hər dərsdə sual cavabda aktiv iştirak etməli, mövzunu sərbəst, aydın, ardıcıl danışmağı bacarmalıdır.

***Tələbələr üçün tövsiyələr:****Tələbələr auditoriyada fəal iştirak etməyə, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

### *Sərbəst işlər*

Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Əks təqdirdə, tapşırıq qəbul edilmir və ümumi baldan çıxılır. Fərdi tapşırıqların gec təqdim edilməsi qəbul edilmir və qiymətləndirilmir. Bununla birlikdə, növbəti ayın balları hesablanarkən, yuxarıdakı şərtlər daxilində fərdi tapşırıqlar yenidən təqdim edilə bilər.
Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin müəyyənləşdirdiyi digər formada aparıla bilər.

### *İmtahan*

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılanApelyasiya komissiyası şikayət edə bilərsiniz. Apelyasiya komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

### *Qiymətləndirmə*

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan imtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

***Tövsiyə olunan ədəbiyyat***


1.Azərbaycan Respublikasının Mərkəzi Bank haqqında Azərbaycan respublikasının Qanunu Bakı 1996 (əlavə və dəyişiliklərlə)

2."Azərbaybaycan Respublikasında Banklar haqqında Azərbaycan Respublikasının Qanunu" Bakı 1996 (əlavə və dəyişiliklərlə)

3. Valyuta tənzimi haqqında Azərbaycan Respublikasının qanunu Bakı 1994 (əlavə və dəyişiliklərlə)

4. "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları" Bakı 2003-cü il

5. Banklarda korporativ idarəetmə stadartları Bakı 2004

7. Banklarda kreditlərin verilməsi qaydaları Bakı 2008

8. Banklarda risklərin idarə olunması haqqında qaydalar Bakı 2013

9. Bankların likvidliyinin idarə olunması haqqında qaydalar Bakı 2009

10. Valyuta tənzimi haqqında AR Mərkəzi Bankının qaydaları Bakı 2016

12.Nağd pul dövriyəsi və nağdsiz ödənişlər haqqında AR Mərkəzi Bankının qaydaları Bakı 2016

13.Chartered İnstitute Managment Accountant. İslamic Banking and Takaful products. Dərs vəsaiti. London 2013-cü il

14. Beynəlxalq Maliyyə İnstitutlarının rəsmi internet səhifələri.

15. "Auditor xidməti haqında Azərbaycan Respublikasının Qanunu" Bakı 1994

16." Qiymətli kağızlar haqqında Azərbaycan Respublikasının Qanunu" Bakı 1998

17." Lizinq xidməti haqqında Azərbaycan Respublikasının Qanunu" Bakı 1994

18. M.M,Bağırov "Banklar və bank əməliyyatları" Bakı 2003

19. Ş.Ə.Abdullayev, N.N.Xudiyev "Kommersiya banklarında kredit resurslarının təşkili və kredit risklərinin sığortalanması" Bakı 2000

20.R.M.Rzayevin redaktəsilə "Pul, kredit və banklar" Bakı 2000

21.Ş.Ə Abdullayev "Kommersiya banklarının əməliyyatları" Bakı 2004

2 2 . Ş.Ə.Abdullayev, R.V. Əsgərova "Bank işi" Bakı 2009

23. Ş.Ə. Abdullayev "Bankların resursları və onların idarə olunması sistemləri 2010

24.Z.F. Məmmədov "Bank işi və elektron bankçılıq" Bakı 2003

25.A.F. Kərimov, A. Babayev "Qiymətli kağızlar bazarı" Bakı 2003

26.A.M. Abbasov "qiymətli kağızlar və onlarla əməliyyatlar" Bakı 2007

27. Sadıqov E.M " Azərbaycan qiymətli kağızlar bazarı və onun inkişaf prespektivləri" Sankt Peterburq 2003
28.R.V.Əsgərova " Pul, kredit və banklar" Dərslik Bakı 2009
29. Z.F.Məmmədov " Pul, kredit və banklar" Dərslik Bakı 2010
30. X.Ə.Hüseynov .,E.Ə.Balayeva "Pul kredit və banklar". Dərslik , "Adiloğlu " Bakı 2015
31. Pul, bank və maliyyə bazarlarının iqtisadiyyatı ( Mişkin )2021
32. Əməliyyatların idarə edilməsi prinsipləri. Dayanıqlı inkişaf və təchizat zəncirinin idarə edilməsi 2020 Cey Heyzer, Barri Render, Çak Manson.
33. Bank işi praktikum 2020 M.C.Hüseynov, Ş.N.Nəbiyeva, E.N.Quliyev
34. www.cbar.az
35. www.nba.az